# Azərbaycan iqtisadi müstəqillik, güc və siyasi iradə sayəsində gələcəyə çox böyük nikbinliklə baxır

*Qlobal iqtisadi artım proqnozu aşağı salındığı şəraitdə ölkəmizin iqtisadiyyatında dinamizm qorunur*

**Azərbaycan iqtisadi qüdrətini davamlı surətdə artırır və siyasi nüfuzunu daim möhkəmləndirir. Ölkəmiz müstəqilliyini cəmi 24 il əvvəl bərpa etməsinə baxmayaraq, qısa zaman kəsiyində hər dövlətə nəsib olmayan sürətli innovativ inkişafa nail olmuşdur və regionun qüdrətli dövlətidir. Bu səviyyə ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttin müasir şəraitə müvafiq uğurla həyata keçirilməsi sayəsində mümkün olmuşdur. Onun müdrik siyasəti nəticəsində Azərbaycan bu gün əsl iqtisadi və siyasi müstəqillik qazanıb və bu proses durmadan irəliləyir. Ümummilli liderin uzaqgörən strategiyası hesabına ölkəmizi təhdid edən təhlükələr aradan qalxmışdır. Ulu öndərin siyasi varisi, dövlət başçısı ölkənin bütün həyatını əhatə edən mütərəqqi islahatların aparılması və layihələrin icrası üçün müvafiq addımları atır və hər bir sahədə inkişaf etmiş dövlətlərin səviyyəsinə çatmaq üçün qarşıya mühüm vəzifələr qoyur, tapşırıqlar verir.**



Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində sosial-iqtisadi artım barədə demişdir: "Biz iqtisadi artımın yüksək templərini ilin sonuna qədər saxlamalıyıq. Əminəm ki, biz buna nail olacağıq. Çünki birinci altı ay ərzində elə işləməliyik ki, ili gözəl nəticələrlə başa vuraq. Əminəm ki, makroiqtisadi sabitlik də təmin olunacaq. Çünki bayaq dediyim kimi, inflyasiya cəmi 3,5 faiz təşkil edir və ümumiyyətlə, hesab edirik ki, bir rəqəmli inflyasiya hər bir ölkə üçün gözəl göstəricidir. Son illər ərzində bizdə inflyasiya çox aşağı səviyyədədir. Bu səviyyə əlbəttə ki, normal iqtisadi inkişafı təmin edir və insanların rifah halını yaxşılaşdırır".

Siyasi nüfuzun və sosial inkişafın təməlində qüdrətli iqtisadiyyat dayanır. İqtisadi qüdrətin əsasını isə innovativ inkişafa nail olmaq, rəqabətqabiliyyətliliyi təmin etmək, beynəlxalq bazarlara böyük çıxışları bacarmaq və möhkəm mövqe qazanmaq, milli mənafeləri təmin edən beynəlxalq əməkdaşlığı genişləndirmək kimi mühüm amillər təşkil edir. Azərbaycan bu istiqamətdə uğurla addımlayır.

Təsadüfi deyil ki, cari ilin altı ayında ölkəmizdə 26,3 milyard manatlıq ümumi daxili məhsul istehsal olunub. Belə ki, real artım ötən ilin müvafiq dövrünə nisbətən 5,7 faiz təşkil edib, qeyri-neft sektorunda isə bu rəqəm 9,2 faizdir. Ölkə iqtisadiyyatına mənfi təsirin qarşısının alınması və dayanıqlığın təmin edilməsi üçün dövlət başçısının göstərişinə müvafiq kəsərli tədbirlər görülmüşdür. Bu addımlar nüfuzlu beynəlxalq maliyyə-iqtisad təşkilatları — Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən də adekvat qiymətləndirilməklə dəstəklənib. Aparıcı reytinq agentlikləri Fitch Raitings və Standard and Poors da bu prosesə müsbət yanaşmış, cari ilin birinci yarısında Azərbaycan Respublikasının uzunmüddətli yerli və xarici valyutada reytinqini "BBB" investisiya səviyyəsində bir daha təsdiq etmişlər.

Müsbət göstəricilər təbii ki, özünü dövlət büdcəsində də aydın göstərir. Dövlət büdcəsinin mədaxili proqnoza qarşı 101,2 faiz yerinə yetirilib.

Vergilər Nazirliyi xətti ilə daxilolmalarda diqqəti cəlb edən bir göstəricini qeyd etmək zəruridir. Belə ki, dövlət siyasətində real sektorun dinamik inkişafını təmin etmək prioritetdir və bu istiqamətdə bütün lazımi addımlar davamlı surətdə atılır. Bu da öz müsbət nəticəsini vergi ödəmələrində çox aydın göstərir. Bu ilin altı ayında Vergilər Nazirliyi təsdiq olunmuş proqnozu 100,2 faiz yerinə yetirib, büdcəyə 3 milyard 329 milyon manat vəsait daxil olub. Bu məbləğin 68,3 faizi qeyri-neft sektorunun payına düşüb. Bu göstərici 2014-cü ilin müvafiq dövrünə nisbətən 11,4 faiz bənd çoxdur. Göründüyü kimi, real sektorun inkişafı üçün görülən tədbirlərin sayəsində ilbəil yeni, daha yüksək mərhələ əldə edilir.

Müasir dövrdə şərait elədir ki, hökmən ölkədaxili və xaricindəki makroiqtisadi çağırışların təhlili əsasında, sosial-iqtisadi inkişafın prioritetləri və əsas hədəfləri nəzərə alınmaqla büdcə layihələri hazırlanır. Bu xarakterli fəaliyyət özünü doğruldub.

Hazırda beynəlxalq iqtisadi və maliyyə durumunda mövcud vəziyyət mürəkkəbdir. Bu barədə mediada da tez-tez bəhs edilir. Belə ki, Beynəlxalq Valyuta Fondu qlobal artım proqnozunu növbəti dəfə aşağı salıb. Məsələn, Yunanıstanın götürdüyü borcları ödəmək iqtidarı zəif olduğuna görə Avropa İttifaqını tərk etmək təhlükəsi ilə üzləşib, bu təhlükədən xilas olmaq üçün yenidən borc alıb. Çin iqtisadi artımı geriləyib, fond birjalarında təlatümlər səngimir, neft və neft məhsullarının qiymətlərinə mənfi təsirlər davam edir və s. Dünyada yaşayıb, qlobal proseslərdən kənarda qalmaq mümkün deyil, az və çox dərəcədə hər bir ölkəyə təsir edir. İlk növbədə ölkənin valyuta daxilolmalarının azalması və tədiyyə balansının müsbət saldosunun daralması, Azərbaycan mənşəli məhsulların rəqabətliyinin enməsi ilə özünü büruzə verib. Ortamüddətli dövrdə ölkə iqtisadiyyatı üçün regionda geosiyasi gərginliyin artması, xarici iqtisadi mühitin daha da pisləşməsi, dövlət və özəl sektorlarının gəlirlərinin azalması, bunun nəticəsi olaraq sahibkarların iqtisadi fəallığının səngiməsi və maliyyə bank sektorunun dayanıqlığının zəifləməsi kimi çağırışlara Azərbaycan rəhbərliyi vaxtında hazır olmaq üçün olduqca diqqətli və operativ fəaliyyət istiqamətinə malikdir. Əldə edilən uğurlar, davamlı inkişaf və dinamizmin qorunması bu istiqamətdəki siyasi xəttin düzgünlüyünü bir daha təsdiq edir. Azərbaycanda aparılan islahatlar, reallaşdırılan layihələr sayəsində iqtisadi potensial böyüyür, güclü təsərrüfat sahələri fəaliyyət göstərir. Bu proses dövlətin hərtərəfli dəstəyi və siyasi iradəsi ilə daim gücləndirilir. Ötən müddətdə qazanılan nəticələr təsdiq edir ki, aparılan siyasət ölkənin gələcəyinə çox böyük potensial vəd edir. Ölkə başçısı Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunmuş konfransdakı nitqində demişdir: "Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafına təkan verdi. Bu gün Azərbaycan gələcəyə çox böyük ümidlərlə, nikbinliklə baxır. Bunun əsas səbəbi iqtisadi müstəqillikdir, iqtisadi gücümüzdür və siyasi iradədir".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**